BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№2 Humanitar elmlər seriyası 2011*

UOT 94(429.24)

# AZƏRBAYCAN DİASPORUNUN İLK İCMALARI VƏ ONLARI DOĞURAN SƏBƏBLƏR, FƏALİYYƏTİ

**Z.M.ƏSGƏROVA**
***AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu***
***diaspor 2011@mail. ru***

*Azərbaycanda islam dininin yayılması orta əsrlərdə Yaxın Şərqdə baş verən tarixi proseslər, şərq ölkələrində elm və mədəniyyət mərkəzlərinin (Qahirə, Şam, Bağdad) yaranması kimi hadisələr azərbaycanlıların məqsədyönlü şəkildə uzaq ölkələrə axışmalarına, həmin yerlərdə məskunlaşmalarına və beləliklə, erkən dövrlərdən Azərbaycan diasporunun formalaşmasına gətirib çıxarmışdır.*

*Təqdim olunan bu məqalədə Azərbaycan diasporunun ilk icmalarının yaranma səbəbləri, problemləri, azərbaycanlıların Yaxın və Orta ölkələrində məskunlaşması tarixinin müxtəlif dövrləri araşdırılmışdır.*

**Açar sözlər:** Vətən tarixi , diaspor, Azərbaycan diasaporu, mühacirət, şərq ölkələri

Araşdırmalar göstərir ki, vətəndən kənarda ilk Azərbaycan icmaları məhz şərq ölkələrində yaranmışdır. Bir sıra tarixi mənbələrdəki faktlara əsaslanaraq söyləmək olar ki, Azərbaycanda islam dininin bərqərar olması ilə yaxın şərq regionu ilə Azərbaycan arasında dini- mənəvi əlaqələr qurulmuş, illər keçdikcə isə mədəni inteqrasiya prosesi başlanmışdır. VII əsrin sonu – VIII əsrin əvvəllərindən başlayaraq islam dininin qəbulu ilə əlaqədar Azərbaycanda ərəbdilli elm və mədəniyyət inkişaf etməyə başlamış, bununla bağlı olaraq onlarla azərbaycanlı şair, alim və mütəfəkkir islamın mərkəzi Məkkə və digər ərəb şəhərlərinə mühacirət etmişlər.

Azərbaycanın ərəblər tərəfindən işğalı ölkədə islam dininin yayılması, məktəblərdə və mədrəsələrdə tədrisin ərəbcə aparılması ərəbdilli elmin və mədəniyyətin formalaşmasına gətirib çıxarmışdır. Bu proses on illərlə davam etdiyindən Azərbaycanla islamın mərkəzi Məkkə və başqa ərəb şəhərləri arasında elmi, mədəni ticarət, iqtisadi əlaqələrin yaranmasına və inkişafına səbəb olurdu. Azərbaycandan olan elm adamlarının, tacirlərin, müxtəlif peşə sahiblərinin ərəb ölkələrinə getmələri, orada yaşayıb-yaratmaları barədə müxtəlif mənbələrdə məlumatlar verilir.

Azərbaycan alimi, filologiya elmləri doktoru, professor Malik Mahmudov "Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər VII-XII əsrlər" mənbəsində

qeyd etmişdir: “Ümumiyyətlə götürdükdə ərəbdilli poeziyada qeyri- ərəblərin iştirakı islamın ilk əvvəllərinə aiddir. Əməvilər dövründə həmin hərəkat daha da güclənmiş, Abbasilərin hakimiyyət başına gəlməsindən sonar isə son dərəcə geniş miqyas almışdır” (3, 4).

Məşhur Azərbaycan alimi və ədibi Mirzə Məhəmmədəli Tərbiyət (1875-1940-cı illər) “Danışməndane Azərbaycan” kitabında Mədinədə yaşamış azərbaycanlı şairlərdən beş nəfərinin adını çəkmiş, İsmayıl İbn-Yasərin, Əbül- Abbas Əmanin, Musa Səhəvatin haqqında qısaca məlumat vermişdir. M. Tərbiyət həmçinin İsmayılın qardaşları Məhəmməd və İbrahimin də məvali şairlərdən olduğunu yazır.

VII, VIII əsrlərdə Mədinədə yaşamış azərbaycanlı şair-alimlərdən biri də Əbdül Abbas Əl-Əkma olmuşdur. O, bir sıra mədhlər, mərsiyələr və həcvlər müəllifidir. Şübhəsiz ki, Mədinədə yaşayıb-yaradan azərbaycanlı şair və mütəfəkkirlərin siyahısı yalnız adları çəkilən soydaşlarımızla bitmir. Görünür, Ərəbistanda azərbaycanlı icması yaşamış və sözügedən şairlər də bu icmanın içərisindən çıxmışlar.

Yaxın Şərqin elm və mədəniyyət mərkəzlərinə azərbaycanlı tələbələrin və alimlərin axını vətəndən kənarda yeni-yeni azərbaycanlı icmaların yaranmasına gətirib çıxarırdı. Tarixi faktlar təsdiqləyir ki, qürbətə üz tutan azərbaycanlı alim və mütəfəkkirlər əksər hallarda vətənə dönmür, ömürlərini yaşadıqları vilayətdə başa vurudurlar.

Yaxın və Orta Şərq ölkələrində yaşamış azəri sənətkarlardan Əbdül Abbas Əl Əta, Bərdə şəhərində anadan olmuş ilahiyyətçi alim Əbu-Səid Əhməd Hüseyn oğlu Bərdəi, Əbül Qasim Bərdəi, Əbu Abdulla ibn Səlmani, Əbu Tahir ibn Səlmani, Xətib Təbrizi, Əbuhəfs Ömər Əli Yənsani, Əbu Ömər Osman Dərbəndi, Ömər Osman oğlu Gənci, Məhəmməd Yəhya Gəncəli, Sihabəddin Ömər Sührəvərdi, Əminəddin Muzəffər Əbülxeyr oğlu Təbrizi, Zəkəriyyə Qəzvin, Tacəddin Məhəmmədhəsən Urməvi, Mühirddin Məhəmməd Vərdəi və b. vətəndən uzaqlarda yaşasalar da, əməlləri ilə ölkəsinə, öz millətinə şöhrət gətirmişlər. Əlbəttə, buraya dilçilər, ilahiyyətçilər, alimlər deyil, həmçinin orta əsrlərin başqa sənət sahibləri də daxil idilər. Bunlardan bəziləri uzaq ölkələrlə əlaqə saxlayan tacirlər, bəziləri könüllü şəkildə yaxud fatehlərin zorla apardıqları sənətkarlar, bəziləri isə naməlum şəxslər olmuşlar. Yaxın və Orta Şərq ölkələrində ən məşhur sarayların layihələşdirilməsində, tikilməsində iştirak etmiş onlarca azərbaycanlı sənətkarlardan danışmaq olar.

Cağdaş Azərbaycam memarı və tədqiqatşısı, memarlıq doktoru Cəfər Qiiyasinin apardığı araşdırmalara görə “hələ islamın yayıldığı ilk illərdə xəlifə Ömər Kufədə birinci məscidin tikintisini Azərbaycandan çağırdığı memara tapşırmışdır” (1, 44).

Tarixi faktlar, o cümlədən məşhur türkoloq Karl Menqas “Türk dilləri və türkdilli xalqların yayılışı” adlı əsərində hələ XX əsrin əvvəllərində İraqda yüz mindın çox azərbaycanlının yaşadığını göstərmişdir. Son məlumatlara görə onların sayı yarım milyondan artıqdır (10, 115).

Azərbaycanlılar bu yerlərdə necə məskən salmışlar? Kərküklü tarixçi Şakir Sabir İraqda türkdilli xalqın məskən salmasının VII əsrin başlandığını və 745-ci ildə Bağdadda artıq türk məhəllələrinin yarandığını göstərir. Həmin türklər türkmanlar adı ilə yaşamışlar.

Millətlər liqasında yaradılmış xüsusi beynəlxalq komissiya tərəfindən tərtib edilmiş beynəlxalq əhəmiyyətli rəsmi sənəddə də türkmanlar haqqında söhbət gedir. Həmin sənəd "İraqda Türkiyə arasında sərhəd məsələsinə aid sorğuya nəzarət etmək üçün Millətlər Liqası tərəfindən seçilmiş xüsusi komissiyanın hesabat"ıdır. 30 sentyabr 1924-cü ildə Millətlər Liqasına təqdim edilmiş həmin hesabatda Britaniya hökümətinin belə bir iddiası verilib: İraq türkmanları Osmanlı dövləti yaradılmasından çox-çox əvvəl İrandan gəlmişlər və çox güman ki, Abbasi xəlifələrinin silahlı qüvvələrini təşkil edən türkmanlardan törəyiblər.

Britaniya mövqeyi-nəzərini təsdiq edən Millətlər Liqasının xüsusi komissiyasının hesabat sənədində həmçinin deyilir: «Britaniya hökymətinin fikri həqiqətə uyğun görünür. Çünki onların, yəni İraq türkmanlarının əksəriyyəti Toğrul əsgərlərinin, abbasi xəlifələrinin müttəfiqlərinin, Atabəy döyüşçülərinin nəslindən yaranıblar».

İraq türkmanları neçə əsrdir ki, İraqda yaşayırlar. Kərküklü tarixçi  Şakir Sabir iraq türkmanları haqqında araşdırmalar aparmış, yazdığı «İpaq türkmanlarının qısa tarixi» əsərində qeyd edir ki, İraq türkmanları neçə əspdir ki, İraqda yaşayırlar. Onlar müxtəlif səbəblər üzündən axın-axın Orta Asiyadan və Türküstandan, İraqla şimal-şərq tərəfdən həmsərhəd ölkələrdən, daha dəqiq desək, Buxara və Səməpqənddən, Xopasan və Qafqazdan, Deyləm və səlcuq orduları ilə birlikdə Azərbaycan, Özbəkistan, Xəzər, Xarəzm, Dağıstan və başqa ölkələrin türklərindən İraqa gəlmiş əhalinin indiki nəslidir. Qəbilələr müxtəlif olduğu üçün onların ləhcələri də müxtəlifdir» (10, 121).

Tarixi faktlara əsaslanaraq qeyd etmək lazımdır ki, orta əsrlərdə türklərin İpaqa axını kəsilməyib. Tədqiqatçı Şakir Sabir öz əsərində göstərir ki, İraqda Buveyhi hakimiyyəti zamanı İraqa axışıb gələn türklər ölkənin əsasən mərkəzi və cənub hissələrini özlərinə vətən seçirdilər. Şimalın şəhər və strateji rayonları – Samarra, Mosul, Kərkük, Ərbil, Tikrit və  başqaları onların yaşayış məskənləri olurdu.

Məşhur tarixçi ibn Əl-Əsir yazırdı ki, İraq qazzları adı altında h.t. 433-cü ildə İraq türkmanların yeni dalğası köç etdi. Başqa tarixi mənbələrə görə «bu dəfə köç edənlərə Balkan türkmanları deyirdilər. Onlar İraqa Azərbaycandan gəlmişdilər. Başçıları Əbu Mansur Köktaş və Əbu Əli Ben Dehqam idi. Mosul və ətraf rayonlarda, həmçinin Tələfərdə məskən salmışlar. Həmin mənbələrə görə  qeyd etmək olar ki, İraqda Azərbaycan icmaları Buveyhi hakimiyyəti zamanı formalaşmağa başlamışdır. Başqa mənbələrə görə qeyd etmək lazımdır ki, Səlcüqlar dövləti dövründə İraqda məskən salmış türk

qəbilələrindən Bayat qəbiləsinin adı çəkilir. Onun haqqında bir çox mənbədə məlumatlar verilir.

Məşhur tarixçi Kaşğari 1072-ci ildə yazdığı «Divani-lüğət it-türk» əsərində yazır: «Bayat Oğuz-tüpk tayfasıdır, onlara türkman da deyilir. 22 qəbiləyə bölünür. Hər qəbilənin də öz nişanı var. Onunla mal-qaralarını və dövlətlərini nişanlayirlar».

Bayat haqqında «Böyük Türk ensiklopediyası»nda da məlumat verilir. Belə ki, göstərilən ensiklopediyada deyilir ki, "Kərkük rayonunda məskən salmış türkmanların əksəriyyətinin əsli bayat qəbiləsindəndir. Bayat nəslinin Mosul rayonunda, Tələfərdə, Bağdadda, Kənaniyyədə, Hillədə bu gün də yaşadığını, kərküklü tədqiqatçı Şakir Sabir "İraq türkmanlarının tarixi" əsərində geniş qeyd edir. Deməк, Bayat qəbiləsi bu torpaqlarda Səlcuqlar dövründə məskən salıblar.

Ensiklopediyada həmçinin böyük klassik Azərbaycan şairi Məhəmməd Fizulinin bu qəbilədən olması qeyd edilir. Ensiklopediyada həmçinin deyilir: «Onlar, yəni bayat qəbilələri, İraqda 13 qola və hər qol da müxtəlif nəsillərə bölünüblər. Ümumən, türk-şərq musiqi muğamlarından biri sayılan bayatı muğamının adı da bayat türkmanlarına aiddir. Belə rəvayət mövcuddur ki, həmin muğam İstanbulda 12 türkman musiqiçisi tərəfindən yayılıb, şöhrət tapıb». Həmin mənbədə daha sonra qeyd edilir ki, Bayat qəbiləsi oğuzları, yaxud türkmanları təşkil edən 22 qəbilədən biridir ki, onlar mənşə etibarilə bütün Anadolu, Azərbaycan və Türküstan türklərini əhatə edirlər.

Fizuli yaradıcılığına qol-qanad verən, onu azərbaycanca ölməz əsərlər yazmağa sövq edən, ona söz sənətinin şəffaf çeşməsindən su içirən Füzulini dahi edən bir elatın zəngin folkloru vardır.

Akademik Həmid Araslı «Böyük Azərbaycan şairi Fizuli» əsərində bu məsələnin üzərində dayanır. O, yazır: «Abbasi xəlifələri hər hansı bir ərəb sülaləsinin, yaxud ərəb qəbiləsinin qaldıra biləcəyi üsyanadan mühafizə olunmaq məqsədilə Azərbaycanın müxtəlif yerlərindən, xüsusən şimal əyalətlərindən bir çox qəbilələri Ərəşdən buraya köçürtdülər (9, 77).

Tədqiqatçılar göstərirlər ki, Azərbaycanın İraqla, xüsusən vaxtilə Teymurləngin işğalları zamanı Qarabağ və Ərəşdən köçən azərbaycanlılarla əlaqələri Səfəvivilər dövründə canlanmışdı. 1508-ci ildə Şah İsmayılın vahid Azərbaycan yaratmaq məqsədilə Bağdadı tutması Osmanlı sultanlığını çox narahat edirdi. Türk sultanlığı böyük qüvvə toplayıb Səfəvilərə qarşı tarixdə məşhup olan Çaldıran vuruşmasından müvəffəqiyyətlə çıxır. Bu məğlubiyyət Azərbaycan xalqını böyük itkilər verməк məcburiyyətində qoyur. Çaldıran vuruşmasından sonra türklər Bağdadı tuturlar. Bundan sonra Azərbaycanın İraqla əlaqəsi kəsilmək dərəcəsinə qədər gəlib çatır. Məhz buna görə də, Azərbaycan hakimləri İraqda məskən salmış azərbaycanlı qəbilələrini geri çağırmağa təşəbbüs göstərirlər. Mirzə Camal Cavanşir «Qarabağ tarixi» kitabında yazır: «1747-ci ildə Nadir şah öldürüldükdən sonra Pənah xan yanında olan

adamlarla birlikdə Qarabağ camaatını qarşılamaq üçün İraq və Azərbaycan sərhədlərinə qədər getdi, onların bu səfəri bir nəticə vermədi». Mirzə Camal öz kitabında bir faktı da qeyd edir ki, 1797-ci ildə Məhəmməd Şah Qacar Şuşa qalasında öldürüldükdən sonra Sadiq xan Səqqaqi Azərbaycanı başsız görüb Tehranı almaq və girov aparılmış ailələri geri qaytarmaq əzmi ilə İraqa tərəf hərəkət etdi. Lakin Fətəli şah Sadiq xanın qarşısına çıxdı, onu məğlub etdi (4, 235). Beləliklə, Qarabağ camaatı İraqdan qayıda bilmədi. Həsrət çəkən, yol gözləyən, kəsilən yollardan şikayətlənən xalq sızıltısını, dərd-ələmini bayatılara çevirdi. İraqın Kərkük vilayətində Qarabağ el məhəlləsi yarandı.

Yuxarıda göstərilən tədqiqatlara əsaslanaraq qeyd etmək lazımdır ki, Şərqin elm və mədəniyyət mərkəzi kimi tanınan Bağdadda ən əski çağlardan Azərbaycan icması formalaşmağa başlamışdır. İraqda dünyaya gələn, orada boya-başa çatan, Kərbəlada əbədi yuxuya gedən dahi Azərbaycan şairi Fizuli yada düşür. Fizuli kimi böyük sənətkar ərəb-fars dillərini gözəl billə-bilə, bu dillərdə klassik şeir nümunələri, elmi əsərlər yarada-yarada, türkcə-azərbaycanca nə üçün, kimin üçün yazmışdır?

Fizuli, onun şəxsiyyəti, yaradıcılığı, bu yaradıcılığa qida verən mühit, onun istiqamət və xarakterini müəyyən edən amillər hansılardır? Necə olub ki, vətənindən, doğma mühitindən ayrı düşmüş şair ölməz «Leyli və Məcnun»un təkrarolunmaz gözəllik və mənaya malik qəzəllərini yazmışdır, kimin üçün yazmışdır? Azərbaycanın mərhum xalq şairi vaxtilə İraqda olarkən Fizuli yaradıcılığına öz münasibətini bildirmişdir: «Mən inandım ki, Fizulinin yaşayıb-yaratdığı yerlərdə onun azərbaycanca əsərlərini oxuyan, onun poeziyasına qiymət və qüvvət verən minlər, yüzminlər varmış! Fizuli dili dilindən, dərdi dərdindən, sevinci, arzusu, həsrəti onunla bir olan doğma xalq əhatəsində yaşamışdır. O, indi Kərbəlada zəngin və əzəmətli görkəmi ilə diqqəti cəlb edən İmam Hüseyn məqbərəsinin qarşısında dayanmış, bəzəksiz, təntənəsiz, həzin, kədərli:

“Nə yanar kimsə mənə atəşi-dildən özgə

Nə açar kimsə qapım badi-səbadan qeyri”-sətirlərini xatırladan, son mənzili şair türbəsi kimi yox, bütün iztirab və məhrumiyyətlərinə baxmayaraq, hər gün doğma xalqının səsini eşidən, onun nəfəsini duyan bir övlad kimi öz həmdillililəri ilə bir torpaqda yaşayıb. Təsadüfi deyil ki, bu gün şimali İraqda Kərkük, Ərbil, Mosul dolaylarında, xalq arasında məşhur bəzi xoyratların-bayatıların Fizuliyə aid olduğunu söyləyirlər».

Tarixi faktlar göstərir ki, müxtəlif dövrlərdə azərbaycanlılar dövrün ictimai-siyasi hadisələri ilə bağlı doğma vətənlərindən çox-çox uzaqlarda məskunlaşmaq məcburiyyətində qalmışlar.

XVIII əsrin 30-cu illərində Nadir Şah Əfşar tərəfindən Qarabağdan minlərlə ailə Xorasana, habelə Əfqanistanın bir sıra bölgələrinə köçürülmüşdür. Qeyd etmək lazımdır ki,bu məsələ ilə bağlı əksər tarixçilərin əsərlərində qeydlərə rast gəlinir. Qürbət ellərdə yaşamaq məcburiyyətində qalan həm in

soydaşlarımız haqqında Mustafa Çəmənli «Xallı gürzə» tarixi romanında məlumat verir: «235 illik bir dövrdə Qarabağ bəylərbəyliyinə tabe olan» Cavanşir, Otuz iki Kəbirli ellərini də şah yerindən-yurdundan elədi, Sərəxsə köçürdü. 1737-ci ildə Əfqanistana hücum elədi. Ölkənin paytaxtı Qəndəharı tutdu. Sonra Qəndəhardan bir az aralı özünün şərəfinə yeni Nadirabad şəhərini saldı. Nadir Şah Əfqanistanda hökmünün qüvvətlənməsi üçünyeni Cavanşir elindən neçə-neçə ailəni aparıb orada yerləşdirdi». Nadir Şahın ölümündən sonra (1747) sürgün edilənlərin bir hissəsi vətənə qayıtsa da, xeyli adam taleyini həmişəlik qürbətə bağlamalı oldu. Onlar orada əfşarlar və qızılbaşlar adı ilə indi də yaşamaqdadırlar. C.Məmmədov və H.Sultanova «İranın və Əfqanistanın coğrafiyası» kitabında yazırlar: «Əfşarlar və qızılbaşlar Əfqanistana XVIII əsrdə Nadir şah Əfşar tərəfindən köçürülən türkdilli xalqlardır. Əfşarlar Kabil və Qəndəhar şəhərinin ətrafında, qızılbaşlar isə Qəndəhar şəhərində yaşayırdılar. Ümumi xüsusiyyətlərinin oxşar olmasına baxmayaraq, onlar bir-birindən fərqlənir».

Məhz bu proseslər nəticəsində Şərq ölkələrində Azərbaycan icmaları ntəşəkkül tapmağa başlayır, tarix Azərbaycan dühasının ərəb elm və mədəniyyətinə misilsiz yardımının şahidi olur.

XI əsr Yaxın və Orta Şərq üçün daha yüksək inkişaf dövrü olmuşdur. Türk əsilli qəznəvilərin, sonra isə Səlcuq hökmdarlarının himayəsi ilə çiçəklənmə dövrü keçirən ərəb ölkələrinin həyatında Azərbaycandan getmiş müxtəlif sənət sahibləri, o cümlədən ziyalılar böyük rol oynamışlar. Təkcə bunu göstərmək kifayətdir ki, Xətib Bağdadi «Nəzmiyyə» mədrəsəsinin ilk rəisi – rektoru olmuş Əbu-İsaq Şirazinin də ilk müəllimləri azəri olmuşlar. Belə ustad alimlərdən biri, geniş şöhrət qazanmış «Bağdad tarixi» əsərlərində məhəbbətlə xatırlanan Hüseyn ibn Fərəc ibn Məhəmməd Əbu Abdullah ibn Səlmasidir. «Nizamiyyə» mədrəsəsində və ondan xeyli qabaq onlarca alimin yetişməsində, elmin inkişafında böyük rol oynamış Xətib Bağdadiyə müəllimlik etmiş Hüseyn Səlmasi Abbasilər xilafətinin paytaxtında vətəni Azərbaycanı təkcə zəngin elmi ilə deyil, həm də yüksək insani keyfiyyətləri ilə şöhrətləndirmişdir.

Yuxarıda deyilən araşdırmalara əsasən Azərbaycan diasporunun qədim dövrünə, azacıq da olsa, nəşər saldıq. Lakin şübhə yoxdur ki, bu tarix orta əsrlərdə daha geniş və zəngin şəkildə davam etmişdir. Millətimizin nümayəndələrinin tək-tək, kiçik qruplarla, bəzən də kütləvi halda yaşadığı Yaxın və Orta Şərq ölkələrində, onların əmək fəaliyyəti, yaradıcılıqları yerli xalqın həyatının, tarixinin, mədəniyyətinin, incəsənətinin ayrılmaz hissəsinə çevrilmiş, həmin ölkələrdə Azərbaycanın adına, şöhrətinə səbəb olmuşdur.

**ƏDƏBİYYAT**


1. Cəfər Qiyasi. Yaxın-uzaq ellərdə. Bakı: Elm, 1985, 115 s.
2. Məhəmmədəli Tərbiyət. Danışməndani-Azərbaycan (Azərbaycanın görkəmli elm və sənət adamları). Bakı: Azərnəşr, 1987, 350 s.

3. Mahmudov M. Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər. VII-XII əsrlər. Bakı: Elm, 1983,120 s.
4. Mirzə Camal Cavanşir. Qarabağ tarixi. Bakı: Elm, 1959, 150 s.
5. Mehrəliyev E.Q., Axundov Ə.N. Şirvanilər. Bakıı: Elm, 60 s.
6. Məmmədov Z. Orta əsr Azərbaycan filosof və mütəfəkkirləri. Bakı: Azərnəşr, 1986, 220 s.
7. Nazim Rizvan. Azərbaycan diasporu tarixindən. Bakı: Borçalı NPM, 2002, 206 s.
8. Paşayev Qəzənfər. Altı il Dəclə-Fərat sahillərində. Bakı: Elm, 1987, 227 s.
9. Araslı Həmid. Böyük Azərbaycan şairi Fizuli. Bakı: Elm, 1958, 77 s.
10. Şakir Sabir Zabit. İraq türkmanlarının qısa tarixi // «Xəzər» jurnalı, № 2-3, 1991, s.112-134.

## ПЕРВЫЕ ОБЩИНЫ ДИАСПОРЫ АЗЕРБАЙДЖАНА И ПРИЧИНЫ, ПОБУДИВШИЕ К ИХ ВОЗНИКНОВЕНИЮ

**З.М.АСКЕРОВА**

### РЕЗЮМЕ

История азербайджанской диаспоры восходит к древним временам. Такие события, как распространение исламской религии в Азербайджане, исторические процессы, происходившие в средние века на Ближнем Востоке, возникновение в странах Востока гигантских научных и культурных центров (Каир, Шам, Багдад) способствовало целенаправленным образом переселению азербайджанцев в далекие страны; все это привело к формированию с ранних времен азербайджанской диаспоры.

В представленной статье рассмотрены различные периоды истории возникновения причин, проблем первых общин азербайджанской диаспоры, переселения и оседания азербайджанцев в странах Ближнего и Среднего Востока.

**Ключевые слова:** история страны, диаспора, азербаджанская диаспора, эмиграция, страны Востока

## FIRST AZERBAIJANI DIASPORA COMMUNITIES, THEIR ESTABLISHMENT MOTIVES AND ACTIVITIES

**Z.M.ASGAROVA**

### SUMMARY

The Azerbaijani Diaspora's history takes its roots from ancient times. Such events as spread of Islam in Azerbaijan, historical processes taken place in the Middle Ages in the Near East, establishment of great scientific and cultural centers in the countries of the East (Cairo, Damascus, Baghdad) resulted in the purposeful resettlement of Azerbaijanis in distant lands, which, in turn, led to the formation of the Azerbaijani Diaspora in earlier times. The article researches establishment motives of first Azerbaijani Diaspora communities, their problems and different periods of the history of their settlement in Near and Middle Eastern countries.

**Key words:** Native history, diaspore, Azerbaijan diaspore, migration, country, East